TARİXİN SÖNMƏYƏN KÖZLƏRİ

“Könül yarası” poeması haqqında düşüncələr

(Əvvəli ötən saylarımızda)

Məlahət Soltanqızının poemaları iki istiqamətdə məzmunu özündə ehtiva edir.

Birincisi, onun poemalarının bir qismi həyat və cəmiyyət haqqında essevari poetik düşüncələrdən ibarətdir. Digər qism poemalarında isə tarixi hadisələr, yaxud Azərbaycan xalqının yaddaşında iz buraxmış Qarabağ uğrunda savaş qəhrəmanlarının konkret obrazları əks olunur. Müəllifin “Yarımçıq ömrün xatirəsi” kitabında yer alan üçüncü əsəri “Könül yarası” poemasıdır. Bu əsər belə bir epiqrafla başlanır: “1990-cı il yanvarın 19-dan 20-nə keçən gün Bakı dəhşətli bir gecə yaşadı”. Demək, elə epiqrafın özü oxucu üçün bələdçi olur. Yəni oxucuya aydın olur ki, bu əsər artıq tarixin heç vaxt pozulmayacaq qara bir səhifəsi kimi yaddaşlarda yaşayan 90-cı ilin yanvar hadisələrindən bəhs edir.

Əsərin əvvəlində müəllif təbiəti və zamanı əsas obrazlar kimi təqdim edir. Yəni təbiətdə soyuqdur, ilin qış fəslidir, şaxta qılınc kimi kəsir. Zaman isə XX əsrin son on illiyinə çatmaqdadır. Hadisələr və zaman göstərir ki, özünün azadlığını istəyən insanların taleyi qəddar bir münasibətlə qarşılaşmalı olacaq:

Səhərdir... Qış səhəri...
Sirli Bakımızın gur küçələri
Uyuyur buz kimi qar ağuşunda.
Tufanlar oynayır, şimşəklər çaxır,
Zamanın daş kimi lal baxışında.
Sübhün ölüm kimi soyuq küləyi,
Öpür rasta çıxan hər ağ biləyi,
Sıxıb insanlığı məngənəsində,
Ölüm vurnuxurdu hər döngəsində.
Əzrayıl dayanıb bir kabus kimi
Elə bil ölmüşdü yerin hakimi,
Zamanın alnına basıb möhrünü,
Tanrı göstərirdi qara hökmünü.
Allah qapamışdı sanki gözünü,
Görmək istəmirdi Yer üzünü.

Müəllif tez-tez Allah və Tanrı obrazlarını yada salır. Doğrudur, düşüncədə bu obrazlar qüdrət rəmzi kimi göstərilir. Yəni dünyanın elə bir qüvvəsi yoxdur ki, Tanrıya güc göstərə bilsin, hökm eləsin. Amma təəssüf ki, müəllif haqqa, həqiqətə göz yuman Allahı da diqqətə çəkir. Əgər Allah ədalətlidirsə, onda necə bu dəhşətli haqsızlığa göz yumur.

İşğalçı sovet ordusu Azərbaycan küçələrində özlərini Allahdan da güclü göstərir. Təkəbbürləri ilə insanların mənəviyyatını tapdalayır, onları əzməkdən sanki zövq alırlar.

Birmənalı şəkildə imperiyapərəst dairələr Rusiyanın özünü də işğalçı obrazına çevirməkdədirlər. Müəllif Bakının küçələrində insanları qanına bələyən ordunu güc obrazı kimi yox, qəddarlıq, əzazillik obrazı kimi təqdim edir:

İnsan insanlığın dərkinə qaçır,
İnsan öz qəlbinə bir qapı açır.
Ürək dözə bilmir haqsızlıqlara.
Atılır zülmətin bağırın yara.
Atılır tankların ayağı altda.
Atılır ölümə, atılır qana,
Bir canla borcludur o, yaradana.
Açılır gurhagur, açılır atəş,
Elə bil enibdir torpağa günəş.
Zülmətin bağrını yarır qığılcım.
İnsan cəsədləri bax xıncım-xıncım.
Qaçır, qaçan qaçır ölümə qaçır...
Qaçır, qaçan qaçır ölümdən qaçır...
İnsan qorxmur, ölüm hər şeyin sonu,
Şeytanlar geyinib bir mələk donu.
Donub damarında qanı gecənin,
Kimin əlindədi canı gecənin.
Açılır gurhagur açılır atəş,
Kim ölə, kim qala bir Allah bilir.
Göstərdi gücünü qoca Rusiya.
Günahsız insanlar, zirehli tanklar
Dayandı üz-üzə, o zülmət gecə.
Buyruq kimdən idi?!
Hökmü verən kim?!
O zülmət gecədə kim idi hakim?

Müəllif əsəri həmin müdhiş gecədən səkkiz il sonra qələmə alıb. Amma onun təsvirlərindəki canlılıq göstərir ki, o, hadisələri yaddaşında olduğu kimi bərpa edə bilib. Güc, zor necə insanların istəklərini məhv etmək, insanların iradəsini qırmaq əzmində olduğunu və bu əzmin antiinsani mahiyyət daşıdığını göstərməkdə yaddaş onun əsas yardımçısıdır. Müəllif birmənalı şəkildə göstərir ki, işğalçı ordunu Vətənə heç kim çağırmayıb. Sadəcə onlar razılaşmırlar ki, insanlar azadlıq istəyirlər, azad olmaq, boyunduruqdan xilas olmaq istəyirlər. Bütün hallarda insanları qırıb tökənləri müəllif dinsiz, hissiyyatsız, insanlığa yad ünsür hesab edir:

Kimlər çağırmışdı o qansızları?
Kimlər göndərmişdi o dinsizləri?
Xalqdan gizlin xalqa tələ quruldu.
Haqqın, ədalətin boynu buruldu.
Danışan dillərə qıfıl vuruldu,
Susdurmaq istədi bizi Rusiya.
Bu millət haqqını qanmışdı artıq,
Közdə kabab kimi yanmışdı artıq.
Millət öz sözünü dedi o gecə
Torpağa qarışan şəhid qanıyla
Azadlıq kəlməsi qanlı qələmlə,
Yazıldı tarixə şəhid qanıyla.

Demək, Rusiyanın imperialist dairələri tarixin hansı yolla getməli olduğu ilə barışmırlar. Həm də onu da hiss edirlər ki, artıq Azərbaycan xalqını, bir sözlə, öz haqqını başa düşən milləti susdurmaq çətin olacaq. Millət həmin gecə göstərdi ki, məramından dönmək niyyəti yoxdur. Yalnız sonuncu bir həqiqət var ki, o da iradəsini güc sahiblərinə göstərə bilsin. Bunun üçün birlik şərtdir. İnsanların birliyini müəllif həmin gecənin həqiqəti kimi təqdim edir.

Və bu yerdə əsərə möhtəşəm dərd obrazı qoşulur. Müəllif insanların kədərini, faciəyə düçar olmuş azadlıq aşiqlərinin qanlarına bələnməsini xalqının ən möhtəşəm dərdi hesab edir. O, bu dərdi əzəmət obrazı kimi qavrayır. Müəllif əsərdə ölüm saçan güllələrin timsalında dərdi yağış kimi təsəvvür edir. Göydən yağan dərdin insanların taleyində hansı şırımları açdığını başa düşmək üçün gərək o dövrün şahidi olasan: œ Ø

Ł øŁ ° Müəllif tam inamı ilə təsdiq edir ki, bu dərd insanların yaddaşında əbədi yaşayacaq. Zamanın heç bir küləyi bu dərdi insanların yaddaşından silə bilməyəcək. Bu, Azərbaycan xalqının öz azadlığı yolunda verdiyi ilk şəhidlərin yaddaş ağrısına çevrilmiş dərdidir. Şahidlər isə tarixdir, zamandır. Görünür, insanları qan içində boğmaq istəyənlər unudurlar ki, tarix və zaman şahidi olduğu heç bir hadisəni unutmur.

Müəllif yeri gəldikcə lirik düşüncələrini də yazıya gətirir. Məsələn, o, azadlıq arzusunu gecə doğan ay kimi təqdim edir. Bu, tarixin şirin payı kimi insanların duyğusunda baş qaldıran bir niyyətdir. İnsanların varlığında parlayan azadlıq eşqi zülməti dağıdan bir işıqdır. Ən yaxşısı, müəllifin öz düşüncələrinə diqqət edək:

Azadlıq arzusu - gecə doğan Ay
Azadlıq arzusu necə şirin pay
Azadlıq zülmətdə parlayan işıq.
Azadlıq bir ömrə zinət, yaraşıq.
Onun mənasını sən ucuz tutma,
Bülbül qəfəsdəykən yetişməz gülə.
Ac necə həsrətdir sütül sünbülə
Könül azadlığın həsrətindədir.

Bir sözlə, qəfəsdə olan bülbülün gülə yetişməsi necə çətindirsə, azadlığı olmayan xalqın da azadlığına qovuşması eləcə çətindir. Azadlığın həsrətində olan könüllərin mübarizəsi isə ölümlərdən, qanlardan keçsə də, qarşısıalınmaz bir güclə, qüvvə ilə meydana çıxmışdır.

Müəllif bu düşüncələrini kiçik bir hekayət adlandırsa da, onun könül yarası olduğunu, bir könül ahı olduğunu da xalqının dərdi kimi yaşamaq hissini də duyğulu sətirlərdə ifadə edə bilib:

Sizə söylədiyim kiçik hekayət
Bir könül yarası, bir könül ahı.
Bir çılpaq sevginin hayqıran səsi,
Bir ürkək baxışın qəm şəlaləsi.
Sizə tanıtdığım bu iki cavan
Bir ildə, bir ayda doğulmuşdular.
Həyatı arzuyla yaşamışdılar,
Həyatı ümidlə yaşamışdılar.
Onlar tələbəykən tanış oldular...
O gündən dünyanın rəngi dəyişdi.
Ürkək baxışlarda yandı qığılcım,
Kəlmələr uzandı, sözlər əyişdi.
Zaman ötdü keçdi, illər sovuşdu.
Gənclərin sevgisi çağladı, coşdu.
Yığıldı qohumlar, dostlar, tanışlar.
Üzüklər barmaqda gül-çiçək açdı.

Çox maraqlıdır ki, müəllif azadlığı bir sevgili kimi tərənnüm edir. Azadlıq aşiqləri ona görə ölümdən qorxmur, qandan geri durmur, canlarını fəda edirlər ki, azadlıq onların sevgilisidir və bu sevgilini qorumağa özlərini borclu bilirlər. Fədakarlığın, azadlıq uğrunda qurban getməyin dəyərini azadlığın aşiqləri daha düzgün, daha doğru bilirlər.

Müəllif o dəhşətli gecədən danışır. Hicrañın, ayrılığın vüsala dönüşü kimi həmin gecəni xatırlayır və nə qədər sarsıdıcı deyir:

Bir gün əvvəl o dəhşətli gecədən,
Hicranın vüsala dönən günüydü.
Bir qız barmaqları xına içində,
Bülbülün çiçəyə qonan günüydü.
Məhəbbət döymüşdü qəlb qapısını,
Qırmışdı hicranın qəm qapısını.
Əzəldən belədir bizlərdə adət,
Xınalanar gəlin köçən qızımız,
Xınalar toya gələn sonalar.
Aytəkindi gəlin köçən qızımız
Bənzəyirdi bir xınalı kəkliyə,
Sanki qonmuş dağda bir ətəkliyə.
Hələ bir anası, gəlin anası
Necə sevinirdi, necə ilahi!

Hər halda müəllifin yanğı ilə təsvir etdiyi gənclərin taleyi azadlıq uğrunda vuruşun qanına qərq olur. Əli xınalı qızın, bəylik taxtına qalxacaq gənc oğlanın həyatla vidalaşması müəllifin dərd obrazını tamamlayır. Onun xalqın çəkdiyi iztirablara nə qədər yaxın və doğma olduğunu göstərir.

Axı hər bir gənc ailə qurmaq, ev olmaq, dünyaya övlad gətirmək istəyi ilə çırpınır. Görün müqəddəs diləklər sahibi olmaq istəyindən məhrum etmək. onları öldürmək, qanına bələmək, bütün zaman boyu heç vaxt zəmanət almayacaq cinayətlərdir.

Müəllif gənclərini taleyini son dərəcə ağrılı, acılı misralarla sanki həzin bir ana laylası kimi sözə çevirir:

Gəlinlik qızların əzəl arzusu
Bu arzu de, kimin qəlbinə yaddır,
Gəlinlik donunu geyməsə qızlar,
Analıq adını uca tutarmı?
Gəlinlik namusun, haqqın qapısı,
Gəlinlik qızlığın, bəxtin tanrısı.
Qızlar əyilməyin hər baxışa siz!
Bir ilmə atmayın hər naxışa siz!
Qızlıq qürurunu uca tut hər an.
Alçaqlar qəlbini etməsin viran.
Atılmış çiçəyə bir dön nəzər sal!
Ondan gözəl deyil bu surət, bu hal.
Sən bu gün bir sona, sabah bir ana.
Sevgi addımların qoy büdrəməsin.
Sev səni sevəni, arama dövlət.
İnsanı yaşadan təmiz məhəbbət.
Gəl qərib tutma sən mənim sözümü.
Özünə peşə et səbri, dözümü.
Yağlını yağlı ye, yavanı yavan,
Hər sözü söz etmə, dağılar yuvan.
Qızlar, uca tutun qız adınızı,
Ağıl qazandırar muradınızı.
Hər sözün kəlmənin yerini bilin,
Nə yersiz ağlayın, nə yersiz gülün.

Müəllif əsərin bu hissəsinə qədər İlhamın və Fərizənin adlarını çəkməsə də biz bu sonsuz işığa bələnmiş insanların içindən əbədi və ölməz məhəbbət aşiqlərinin obrazlarını bütün parlaqlığı ilə görürük. Müəllifin qənaəti belədir ki, insanı yaşadan məhəbbətdir, sevgidir, azadlıq yolunda qurban getsən də, əgər bu sənin sevginin, məhəbbətinin təsdiqidirsə, onda sənin həyatın insanların varlığında, düşüncələrində yaşayacaq.

Müəllif M.Soltanqızı hər bir əsərində olduğu kimi, ° ° Ø æß əsərində də mənsub olduğu xalqa, Vətənə nə qədər doğma olduğunu, bu xalqın, bu Vətənin ağrı-acıları ilə birgə yaşadığını son dərəcə hissiyyatlı, duyğulu misralara bir daha təsdiq edir.

Məlahət Soltanqızı əsər boyu gənc qızlara müraciət edir, onlara ideal sevgi arzulayır. Və bu sevgini - adını çəkməsə belə, Fərizənin timsalında göstərir. Həyat göstərdi ki, onilliklər ötüb keçsə də, Azərbaycan xalqının yaddaşında 20 Yanvar bir könül yarası kimi əbədi yaşayır. İnsanlar Vətən aşiqlərinin məzarını hər il sonsuz hüzn və kədərlə ziyarət edirlər. Və hər il bu yaranın göynəmini hər kəs öz varlığında hiss edir.

(Davamı var)